**Aysel Əmirova**
**dissertant**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail:** aysel_amirova@mail.ru

# Altay Sadıqzadənin yaradıcılığında dekorativ heykəltəraşlıq

**Xülasə:** Məqalədə Azərbaycanın görkəmli rəssamı Altay Sadıqzadənin dekorativ heykəltəraşlıq sahəsindəki yaradıcılığını əsaslandıran səciyyəvi xüsusiyyətlər lakonik bədii təhlillərlə müəyyənləşdirilmişdir. Rəssamın "Ekzotik formalar", "Kainatda həyat", "Arxeoloji qazıntılar: qanadlar" və digər əsərlərində yüksək sənətkarlığı mövzuya rəssam mövqeyinin interpretasiyası ilə yanaşı, eyni zamanda metal materialda plastikliyin nümayişi ilə də öz izahını tapır.

**Açar sözlər:** heykəl, kompozisiya, rəssam, rəng, bədii ifadə, forma, element

Məşhur kolleksioner Fransua Pinon müasir incəsənət haqqında düşüncələrini belə qeyd etmişdir: "...İncəsənət mənə gizli sirləri dərk etməyi, cəmiyyətdəki şərtiliklərdən, ümumqəbul olunmuş baxışlardan uzaqlaşmağı öyrətdi. Başa düşdüm ki, yeganə məqsədi dekorativlik olan incəsənət məhdudu çərçivədədir"...

Bu məhdudluğun çərçivəsinə sığmayan özünəməxsus yaradıcılıq stili ilə seçilən görkəmli Azərbaycan rəssamları sırasında Altay Sadıqzadə yaradıcılığının xüsusi rolu vardır.

Ümumiyyətlə, hər bir dövrün özünə xas olan sənətkar obrazı mövcuddur. Müasir dövrümüzdə rəssam deyildikdə daha geniş mənaların nəzərdə tutulduğunu əminliklə qeyd etmək olar. Bu gün rəssama yaradıcılıqda verilən imkanlar müasir incəsənətdə orijinallıq, unikallıq, müstəqillik, ifadəlilik kimi vasitələrlə səciyyələnir. Bu mənada Altay Sadıqzadənin yaradıcılığının digər sahələrində olduğu kimi dekorativ heykəltəraşlıqda da ifadə etdiyi bədii vasitələr özünün dərin fəlsəfi yanaşması, rəssam ideyasının interpretasiyası, materialın xüsusiyyətlərinə dərindən bələdçiliyi sayəsində onu "ram edərək özününküləşdirmə" istedadı izləyicisində böyük təəssürat yaradır.

Heykəltəraşlığın digər janrlarından fərqli olaraq dekorativ heykəllərdə daxili psixoloji yaşantılardan daha çox forma, plastika və siluet gözəlliyini əks etdirən kompozisiyalar ön plana çəkilir. Bu mənada rəssamın "Ekzotik forma", "Kainatda həyat", "Arxeoloji qazıntılar: qanadlar", "Müşahidəçi", "Gözəl

həyat maşını" kimi əsərlərində mövzuya rəssam mövqeyinin interpretasiyası böyük maraq doğurur.

Müasir dövrün incəsənət istiqaməti ilə səsləşən özünəməxsusluq, nümayiş etdirilən sənətdə müstəqillik təbii ki, hər bir əsərdə rəssamın fərdi yaradıcılıq prinsipini üzə çıxardır. Misal üçün, 2010-cu ildə iki eyni adlı "Ekzotik forma" adlı əsərləri ilk baxışda bir-birindən fərqləndirən cəhətin onların rəng həlli ilə ifadə olunmaları fikri yarana bilər. Lakin kompozisiya quruluşları arasında xırda məqamların incələnməsi kompozisiyalarda bir-birindən fərqli ekzotik təsirlərin olduğunu meydana çıxarır.

Məzmunu etibarı ilə qeyri-ənənəvi, çox fərqli bir formanın yaradılması heç də tamaşaçısı üçün tamamilə anlaşılmaz və yaxud yad olan, hətta dərk edilməsi mümkünsüz hesab edilən quruluşun təqdimi deyil, onu düşündürən, hər bir elementin daxilində gizlənən sirrin nədən ibarət olduğuna artan marağı ilə müşahidə olunur.

185x100x90 sm ölçüsündə olan əsərdə tərəfləri assimmetrik, dalğalı olan formanın dinamizmi ilə yanaşı nümayiş etdirdiyi lirizm, sanki çılğın bir insanın qəlbindəki yumşaqlığın, həlimliyin olduğundan xəbər verən bir həssaslığı xatırladır. Mövcud olduğu yerə görə real, ənənəvi hesab edilməyən ekzotiklikdə rəssamın irəli sürməyə çalışdığı fikir əsasən ilk baxışda tamaşaçısına aydın olmayan elementin üzərində düşünərək, onun əks etdirdiyi gözəlliyi özünün axtarıb tapmasından ibarətdir.

Ümumiyyətlə, adından da məlum olduğu kimi dekorativ heykəl özündə gözəlliyi əks etdirmək, zövqü oxşamaq məqsədi daşıyır. Eyni zamanda mövcud olduğu məkan daxilində əhatə olunduğu mühitlə estetik bir harmoniyanın ifadə edilməsi, insana həm mənəvi, həm də estetik və psixoloji təsir bağışlaması baxımından da əhəmiyyətli olan bu əsərlərin estetik normalara, gözəlliyə xidmət etdiyi bir mənalıdır. Qeyd olunanları əsaslandırmaq üçün əsərin forma quruluşu üzərində dayanaraq onun kompozisiya həllini təhlil edərkən metaldan olan incə və sadə dayaq üzərində verilmiş formanın bütün hissələrlə əlaqələndirilmiş halda həll edildiyini qeyd edə bilərik. Bu əlaqləndirmədə tərəflərin təsirli həllində sənətkarın dayaq və formanın qarşılıqlı münasibət daxilində olduğunu göstərmə cəhdi nəzəri cəlb edir. Aşağı qisimdə dayağın bir ayağı üzərində həkk bərkidilmiş fiqur təbiətdə mövcud olan hər hansı bir canlını, əsasən də zərif, incə məxluqu ifadə etmişdir. Yuxarı qisimdəki tərəflər kəskin bucaqların iştirak etmədiyi, sanki bir mayenin səth üzərində axaraq ətrafa yayılması nəticəsində aldığı bir şəkli əks etdirir. Hətta aralıqlarda buraxılan boşluqlar bu həssaslığı daha təsirli formada yaşatmaqdadır.

Formanın dayağa bərkidildiyi gövdəsində istifadə edilən qara metaldan yuxarıda kiçik bir hissədə elə tərzdə ifadə edilmişdir ki, sanki o formadan

ayrılmağa cəhd edərək kənara sıçrayırmış kimi əsərin məna dəyərinə xüsusi rəng qatır. Burada qaradan sıçrayaraq getdikcə alt qatdakı rənginə girən qırmızının meydana gəlməsi kimi yaranmış təəssürat eyni zamanda rəssamın rəngkarlıq təcrübəsinin əsaslarını göstərir. Hətta bir hissədə qara rəngin yuxarıya doğru solaraq qırmızı çalarla dəyişməsi də bunu təsdiq edir.

Əsərdə rəssam emaye adlı materialdan istifadə etmişdir ki, buna da rəssamlar arasında olduqca nadir hallarda müraciət edilmişdir. Heykəl üçün daha yumşaq hesab edilə bilinəcək materialın istifadəsi ilə rəssam xüsusi zəriflik, incəlik əldə etməyi uğurla bacarmışdır.

Digər "Ekzotik forma"da rəng olaraq yaşılı seçən rəssam yenə də oxşar təsirləri canlandırmağa çalışmışdır. Lakin burada hər bir forma və elementin təbiətin öz daxilində olduğunu, hər bir düşüncənin, fantaziyanın belə təbiətdə mövcud olduğunu sübut etmə cəhdi, əsərdə bir canlı mühitin və yaxud bitki aləmindən alınma təsirin ifadəsini verməyə çalışması diqqəti cəlb edir.

Burada da postament funksiyasını yerinə yetirən dəmir altlıq yenə də mərkəzi kompozisiya ilə əlaqələndirilmiş şəkildə, onun bir parçası kimi verilmişdir. Hətta dəmir dayaqların üzərinə atılmış yaşlı boyalar belə bunu təsdiq edir. Alt qisimdə yaşıl emaye materialdan hazırlanmış dəmir parçasının elastik şəkildə yarpağı xatırladan ifadəsinin verilməsi əsasın bir boşluqda qalmasına imkan verməyərək, onun həm dolğun "obrazını", həm də hər tərəfdən baxılmasını təmin etmişdir. Formanın bütün parçaları tək-tək hazırlanmadan bir bütöv olaraq, özlüyündən qeyri-iradi şəkildə kənarlara yayılaraq, yaranmış "bədii dağınıqlığı" tərənnüm edir. Formanın kənarlarındakı bəzi hissələrin əsasdan ayrılan incə gövdədən sonra enliləşən ifadəsi dekorativliyin plastikliyindəki mükəmməl həlli təqdim edir.

Ümumiyyətlə, dekorativ heykəl kompozisiyası heykəltəraşlığın bir sıra prinsipial əhəmiyyət daşıyan xüsusiyyətlərini özündə əks etdirməklə yanaşı ilk baxışda nəzərə çarpan cəhətlərinə görə də digər janrlardan seçilir. Bu cəhətlərin birincisi dekorativ heykəlin mövzusuna müvafiq məkanın düzgün seçilməsi və bu məkan daxilində ölçülərin düzgün tapılmasıdır. Dekorativ heykəlin ünvanının bağ və parklar, küçə və meydanlar, fəvvarə və interyerlər olduğunu nəzərə alsaq onun həm memarlıq mühiti, həm də yerləşdiyi qorelyeflə ahəngdə olduğunu müşahidə edirik. Bu mənada dekorativ heykəl kompozisiya özündə həm monumental, həm də dəzgah heykəltəraşlığının bəzi xüsusiyyətlərini birləşdirir. Lakin monumental heykəldən fərqli olaraq dekorativ heykəllərdə daxili psixoloji səhnələrdən daha çox obrazın forma, plastika və siluet gözəlliyini əks etdirən səhnələri ön plana çəkilir.

Bu mənada Altay Sadıqzadənin bu istiqamətindəki yaradıcılığına aid "Kainada həyat" adlı əsəri diqqət çəkir. 394x257x188 sm. ölçüsündə olan heykəl kompozisiya Müasir İncəsənət Muzeyinin qarşısında qoyulmuşdur.

Əsər dalğalı hissələrin birləşərək yaratdığı harmonik ifadəsinə görə maraq oyadır. Modern stildə həll edilmiş dekorativ heykəldə rəssam kosmosdakı həyatı əks etdirərkən ondan kənarda olan xaosu, xaosdan yaranan kosmos və oradakı yaşamı olduqca bədii şəkildə mənalandıraraq tamaşaçısını düşünməyə məcbur edir. Metalın sərt və ağır kütləsinə baxmayaraq kosmosun çəkisizliyində ətrafa dağılan kütlələrin harmonik ifadəsinin verilməsində rəssamın materialın bədii xüsusiyyətlərindən məharətlə istifadə edərək yaratdığı plastiklik elə bir təsir yaradır ki, sanki əsərin tərəfləri sabit deyil, onlar havada yellənərək dalğalanır, hərəkət edir. Yaşıl çaların verdiyi sakitlik, rahatlıq, tək rəngin vasitəsilə tərəflərin yaratdığı qarşılıqlı əlaqədəki harmoniya və dinamizm "nizamsız dünyanı səciyyələndirən xaosun özünün yaşamdakı nizamı əsaslandırması" fikrinin bədii əksi kimi böyük maraq doğurur. Burada nizamsızlıq çoxsaylı tərəflərin bir-birinə qarışması, yaranan dağınıqlıq assimmetrikliklə təsdiqini tapırsa, nizam yaşıl rəngin təmkinli xarakterikliyində, formaların istənilən halda eyni hərəkət daxilində təkrarlanmasında özünü göstərir. Sənətkarın sərhədsiz fantaziyası nəticədə qeyri-adi sənət nümunəsinin meydana gəlməsinə əsas yaratmışdır.

Belə nümunələrdən biri də "Səmanı izləmək" adlanır. Əsər sarının daha parlaq ifadəsində həll edilmiş və digər nümunələrlə müqayisədə tərəflərin xüsusi olaraq qarışıq tərənnümündə həyata keçirilmişdir. Sənətkarın verdiyi bədii izah əsasında ucalan yeni göydələnlərin səmaya yetişmək arzusu dayanmaqdadır. Bu fəlsəfi yanaşmanın bədii açıqlaması üçün bir qədər kran formasını xatırladan kompozisiyanın tikilini, dəmir instruksiyaları ifadə etməsi də maraq doğurur. Məqsəd insanın daha rahat komfortlu, müasir stildə yaşamasını göstərmək deyil, əslində bütün bunların əsasında dayanan səmanı izləmək istəyinin dayandığını açıqlamaqdır ki, rəssam bunun öhdəsindən böyük sənətkarlıqla gəlməyi bacarmışdır.

Müqayisə olaraq XIX əsrin məşhur amerikalı heykəltəraşı Aleksandr Kolderin kinetik heykəltarşılıq nümunələrində ifadə edilmiş forma xüsusiyyətlərini göstərmək olar. Məsələn, "Qarışqa yeyən" (Hollandiya, Rotterdam şəhəri, 1963), "Başlar və quyruq" (Berlin, 1965), "Üç yarpaq" (İsveç, Götüburq şəhəri, 1967-ci il) və yaxud "Kişi" (Kana, Monreal şəhəri, 1967) və adlı dekorativ kompozisiyaları göstərmək olar. Qeyd olunan əsərlərdə metalın sərtliyində ifadə edilmiş elastiklik, plastik həll, eləcə də mövzuya rəssam interpretasiyasının yüksək ifadəsi böyük maraq doğurur.

A.Sadıqzadənin "Arxeoloji qazıntılar: qanadlar" adlı əsərindəki bu dəyərləndirmələr xüsusi olaraq özünü aydın şəkildə büruzə verir. Burada daha çox fəlsəfi yanaşma diqqəti cəlb edir ki, bu da rəssamın qarşısına qoyduğu əsas məqsədin arxeoloji qazıntılardan aşkarlanan tapıntıların qanadlanaraq insanlığı zaman yolçuluğuna çıxararaq əsrlərin, qərinələrin apardığı uzaqlara

doğru yol alması ilə öz izahını tapır. Bunun üçün qara ilə qarşılıqlı verilmiş yaşıl tonun ifadəsində sənətkar dərin qatlardan çıxan formaların dağılmış bütövlüyünü simvolizə edəcək şəkildə düz səthlər üzərində sanki özlüyündən açılmış dəliklər vermişdir. Kompozisiyanın yan qismindən uzanaraq yuxarıya doğru qanadlanan hissə isə məzmun açıqlamasına xidmət edən kompozisiya vasitəsi kimi dəyərləndirilir.

Metal materialda obrazlaşmış ifadə "Müşahidəçi" dekorativ kompozisiyasında təsirli formasına görə böyük maraq doğurur. Dəmirin sərt parçalarının birləşərk əmələ gətirdiyi forma canlı varlığı səciyyələndirən həssaslıqla həyata keçirilmişdir. Sanki düz duruş, təmkinli ifadə, ətrafa diqqət, hadisələrə münasibət bir formada canlandırılaraq onu reallığın bir parçası kimi təqdim edir. Uzanan hündür elementin üzərində baş və yanlara doğru ayrılan əllər bioloji varlıq və məntiqi idrakı əsaslandıran müşahidənin əsaslarını əlaqəli şəkildə canlandıraraq formaya "obrazlı ifadə" bəxş etmişdir. Həmin obraz isə həyatı, insanları müşahidə edərək yaşamın məğzini anlamağa çalışır.

Bunun üçün rəssam üç ayaqdan ibarət "postamentin" üzərində mərkəzi kompozisiyanı yerlşdirməklə onun daha uzanan, hündür təsir bağışlamasına imkan yaratmış və bununla da sanki müşahidə üçün daha hündür nöqtədən izləmənin məqsədyönlü təsvirini verməyə çalışmışdır.

Altay Sadıqzadənin dekorativ heykəl kompozisiyalarındakı səciyyəviliyin nədən ibarət olduğunu açıqlamalı olsaq bunu lakonik olaraq belə ifadə etmək olar ki, ənənəvi olmayan formalar üzərində həyatın reallıqlarına fəlsəfi yanaşma bu istiqamətdəki yaradıcılığın əsasını şərtləndirir.

## Ədəbiyyat siyahısı:

1. Николай Томский «Величию и подвигу человека», Р.Ф.Михайлова, А.А.Журавлева, Лениздат, 1983.
2. "Line, olor, form", Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2011
3. Л. С. Бретаницкий, Б. В. Веймарн. Очерки истории и теории изобразительных искусств. Искусство Азербайджана
4. http://www.yarat.az/index.php?lang=az&page=12&yrtMaincatID=12&yrtSubcatID=0&yrtEventID=1989

## Декоративная скульптура в творчестве Алтая Садыхзаде

**Резюме**

В статье дана информация о специфике выдающегося художника Алтая Садыхзаде обосновывающей его творчество в области декоративной скульптуры, которая определяется лаконичным художественным анализом. В таких произведениях художника, как: "Экзотические формы", "Жизнь в космосе", "Археологические раскопки: крылья" и т.д. высокое мастерство наряду с интерпретацией композиции художника, в то же время выражается и в воспроизведении пластики и в материале - метала.

**Ключевые слова:** скульптура, композиция, художник, цвет, художественное выражение, форма, элемент и т.д.

## Decorative sculpture in Altay Sadigzada’s works

**Summary**

The article identified the characteristics of works of decorative sculpture of Altay Sadigzada, a prominent artist of Azerbaijan with laconic literary analyses. In the artist’s “Exotic forms”, “Life in the universe”, “Archeological findings: wings” and other works the superior artistry manifests itself not only with the interpretation of the artist’s view of the subject but also with the demonstration of plasticity on a metal material.

**Key words:** sculpture, composition, artist, color, artistic expression, form, elementsculpture, composition, artist, color, artistic expression, form, element etc.